## Sponsorluq

AN toplantılarına qatılmağa başladığımız zaman çoxlarımızın eşitdiyi ilk tövsiyələrdən biri sponsor tapmaqdır. Yeni gələnlər olaraq, bunun nə demək olduğunu anlamaya bilərik. Sponsor nədir? Necə sponsor tapa və onunla işləyə bilərik? Haradan sponsor tapa bilərik? Bu broşür sponsorluq haqqında qısa məlumat vermək üçün hazırlanıb.

Əsas Mətnimizdə "AN-in ürəyi iki asılının sağalmasını paylaşdığı zaman döyünür" deyilir və sponsorluq sadəcə bir asılının digərinə kömək etməsidir. Sponsorluğun ikitərəfli yolu həm sponsora həm də sponsorluq edilən şəxsə kömək edən sevgi dolu, mənəvi və şəfqətli bir münasibətdir.

### Sponsor KİMDİR?

Sponsorluq şəxsi, özəl bir münasibətdir və müxtəlif insanlar üçün fərqli mənalar daşıya bilər. Bu broşürün məqsədi olaraq, AN sponsorunun sağalma proqramımıza uyğun yaşayan, bizimlə xüsusi, dəstəkləyici, fərdi bir münasibət qurmağa hazır olan Anonim Narkomanlar üzvü olduğunu deyə bilərik. Əksər üzvlər sponsoru, ilk növbədə, bizə AN-in On İki Addımı üzrə, bəzən isə On İki Ənənə və On İki Konsepsiyası üzrə işləməkdə kömək edə biləcək biri kimi görürlər. Sponsor mütləq dost olmaq məcburiyyətində deyil, amma etibar etdiyimiz biri ola bilər. Toplantıda paylaşa bilmədiklərimizi sponsorumuzla bölüşə bilərik.

> **M**ənim sponsorumla münasibətim, digər insanların etibarını qazanmaq və Addımlarla işləmək üçün açar olub. Mən həyatımın bütün qarışıqlığını sponsorumla paylaşdım, o da mənə nə vaxtsa eyni vəziyyətdə olduğunu söylədi. O, mənə necə narkotik istifadə etmədən yaşamağı öyrətməyə başladı.

### Sponsor NƏ edir?

Sponsorlar sponsorluq etdikləri şəxslərlə öz təcrübə, güc və ümidlərini bölüşürlər. Bəziləri sponsorlarını sevgi dolu və qayğıkeş, hər bir halda onları dinləyib dəstəkləyəcək biri kimi təsvir edirlər. Başqaları sponsorun təklif edə biləcəyi obyektivliyi və fikir ayrılığını dəyərləndirir, onların birbaşa və dürüst rəylərinə, hətta bu rəylər qəbul edilməsi çətin olsa belə, güvənirlər. Başqaları isə əsasən On İki Addım üzrə rəhbərlik üçün sponsora müraciət edirlər.

> **B**ir dəfə biri soruşdu, "Mənim nə üçün sponsora ehtiyacım var?" Sponsor cavab verdi: "Çünki özünü aldatdığını təkbaşına anlamaq olduqca çətindir."

Sponsorluq AN-in işlədiyi eyni səbəbə görə işləyir, çünki sağalan üzvlər asılılıq və sağalmanın ortaq bağlarını paylaşırlar və bir çox hallarda bir-birilərinə empatiya göstərə bilərlər. Sponsorun rolu hüquqi məsləhətçi, bankçı, valideyn, evlilik müşaviri və ya sosial işçi olmaq deyil. Bundan başqa, sponsor bir terapevt deyil və heç bir peşəkar məsləhət təklif etmir. Sponsor sadəcə On İki Addım vasitəsilə öz yolunu paylaşmağa hazır olan, sağalmaqda olan başqa bir asılıdır.

Narahatlıqlarımızı və suallarımızı sponsorumuzla paylaşdıqda, bəzən onlar öz təcrübələrini bizimlə bölüşəcəklər. Başqa vaxt isə oxumaq və ya yazmaq üçün tapşırıqlar təklif edə bilər və ya proqramla bağlı suallarımızı cavablandırmağa çalışarlar. AN-ə yeni qoşulduğumuz vaxtlarda sponsor bizə AN dilindən, toplantı formatlarından və xidmət strukturundan tutmuş, AN prinsiplərinin mənası və mənəvi oyanışın mahiyyətinə qədər proqram haqqında qarışıq ola biləcək məsələləri anlamaqda kömək edə bilər.

### Sponsorluq edilən şəxs NƏ edir?

Sponsorumuzla müntəzəm əlaqə saxlamağımız tövsiyələrdən biridir. Sponsorumuza zəng etməkdən əlavə, toplantılarda görüşmək üçün vaxt təyin edə bilərik. Bəzi sponsorlar bizdən onlarla nə qədər tez-tez əlaqə saxlamağımızı gözlədiklərini bildirərkən, digərləri belə tələblər qoymurlar. Əgər bizə yaxın yaşayan bir sponsor tapa bilməsək, əlaqə saxlamaq üçün texnologiyaya və ya poçta müraciət edə bilərik. Sponsorumuzla necə ünsiyyət qurmağımızdan asılı olmayaraq, dürüst olmağımız və açıq fikirli şəkildə qulaq asmağımız vacibdir.

> **M**ən sponsoruma ümumi istiqamət verməsi və yeni bir baxış bucağı əldə etməklə bağlı etibar edirəm. Ən azından, o, mənə özümü kənardan görməyə kömək edir. Bəzən məsələlərə fərqli bir şəkildə baxmaq üçün lazım olan tək şey, bir məsələni başqa birinə səsli şəkildə deməkdir.

Biz sponsorlarımız üçün yük olduğumuzu düşünə və onlarla əlaqə saxlamağa çəkinə bilərik, ya da sponsorlarımızın bizdən qarşılıq olaraq bir şey istəyəcəyini düşünə bilərik. Amma həqiqət, sponsorlarımızın bu münasibətdən bizim qədər fayda əldə etdikləridir. Proqramımızda təcrübəmizi yalnız başqalarına ötürməklə özümüzdə saxlaya biləcəyimizə inanırıq; sponsorlarımızla işləyərək, biz əslində onlara təmiz qalmağa və sağalmağa kömək edirik.

### NECƏ sponsor tapaq?

Birinin bizim sponsorumuz olması üçün bunu ondan xahiş etmək kifayətdir. Bu sadə olmaqla yanaşı, asan olmaya bilər. Bir çoxumuz kimdənsə sponsor olmasını xahiş etməkdən qorxuruq. Bəlkə də aktiv asılılıq dövründə heç kəsə etibar etməməyi öyrənmişik və kimdənsə bizi dinləməsini, bizə kömək etməsini xahiş etmək fikri yad və qorxuducu ola bilər. Bununla belə, üzvlərimizin əksəriyyəti sponsorluğu öz sağalma proseslərinin vacib bir hissəsi kimi təsvir edirlər. Bəzən biz bütün cəsarətimizi toplayıb sponsorluq üçün icma üzvünə müraciət edirik və "yox" cavabını eşidirik. Əgər belə hal baş verərsə biz israrlı olmalı, inamımızı itirməməli və onun qərarını şəxsi qəbul etməməyə çalışmalıyıq. Çox güman ki, insanların imtina etməsinin səbəbləri bizimlə bağlı deyil: ola bilər ki, onlar çox məşğuldur, artıq bir neçə sponsorluq etdikləri şəxslər var və ya çətin dövrlərdən keçirlər. Biz ruhdan düşməməli və başqa birindən xahiş etməliyik.

> **M**ən sponsorumu seçərkən buna bir müsahibə kimi baxdım. Biz bir-birimizə uyğun gəlirik? Sənin gözləntilərin nədir və mən nələr gözləyirəm? Mən danışarkən özümü rahat hiss etdiyim açıq fikirli birini axtardım.

Sponsor axtarmaq üçün ən yaxşı yer AN toplantısıdır. Sponsor tapmaq üçün digər yerlər isə xidmət toplantıları və konvensiyalar kimi AN tədbirləridir. Sponsor axtararkən əksər üzvlər etibar etmə hissini öyrənə biləcəkləri, qayğı göstərə biləcək və proqramda aktiv olan birini axtarırlar. Əksər üzvlər, xüsusən də AN-ə yeni gələnlər, özlərindən daha çox təmiz vaxtı olan bir sponsor tapmağı vacib sayırlar.

Bir qayda olaraq təcrübələri bənzər olan, çətinliklərimizi başa düşə biləcək və uğurlarımızı dəyərləndirəcək birini axtarmaq tövsiyə olunur. Əksəriyyət üçün eyni cinsdən bir sponsor tapmaq empatiya qurmağı asanlaşdırır və bizə münasibətdə özümüzü

təhlükəsiz hiss etməyə kömək edir. Bəzi insanlar isə cinsin qərarverici amil olmamalı olduğunu düşünürlər. Biz öz sponsorumuzu seçməkdə azadıq. Elədir, lakin, cinsi cazibəyə səbəb ola biləcək sponsorluq münasibətinə girməkdən çəkinmək ciddi şəkildə tövsiyə olunur. Belə bir cazibə bizi sponsorluğun mahiyyətindən yayındıra və bir-birimizlə dürüst paylaşmağımıza mane ola bilər.

> Təmiz qalanda mən özümü güvənsiz, tənha hiss edirdim, yoldaşlıq və bir az təsəlli üçün hər şeyi etməyə hazır idim. Təbii olaraq, sağalmağım üçün lazım olan təməli qurmağa diqqət yetirmək-dənsə, öz istəklərimi təmin etməyə meylli idim. Sağalmamın ilk günlərində məndən sui-istifadə etməyən və məni dəstəkləyən o üzvlərin vicdanlı davranışlarına görə İlahiyə təşəkkür edirəm.

Bəzən üzvlər birdən artıq sponsorun olmasının uyğun olub-olmadığı ilə maraqlanırlar. Bəzi asılılar bu yolu seçsələr də, əksəriyyət birdən artıq sponsorun olmasının onları istədikləri cavab və ya rəhbərliyi almaq üçün manipulyasiyaya sövq edə biləcəyini açıqlayaraq buna qarşı ehtiyatlı davranmağa çağırır.

## NƏ VAXT sponsor tapmalıyıq?

Əksər üzvlər mümkün olan ən qısa müddətdə sponsor tapmağın vacib olduğunu hesab edərkən, bəziləri bir az zaman ayırıb ətrafı gözdən keçirməyin və məlumat toplayıb qərar verməyin eyni dərəcədə vacib olduğunu düşünür. Çox sayda toplantılara qatılmaq bizə kimlə rahat olduğumuzu və kimə etibar etməyi öyrənə biləcəyimizi müəyyən etməyə kömək edir. Sponsor axtararkən, kimsə təklif etsə belə, biz mütləq "hə" deməli deyilik. Sağalmamızın erkən mərhələlərində bizə kömək edəcək bir sponsor götürdüyümüz təqdirdə, bu şəxs daha sonra ehtiyaclarımızı qarşılamazsa, sponsor dəyişdirməkdə azad olduğumuzu unutmamalıyıq.

> Nə vaxt sponsor tapmalı olduğumu boğulmaqla müqayisə etdim. Mənim o xilasediciyə-sponsora dərhal ehtiyacım var idi!

Biz proqramda yeni olduğumuz vaxtlarda, kömək və dəstək üçün digər asılılara müraciət etməliyik. Telefon nömrələrini alıb əlaqəyə keçmək və digər sağalan asılılarla paylaşmağa başlamaq üçün heç vaxt çox erkən deyil. Proqramımız bir-birimizə təklif edə biləcəyimiz kömək sayəsində işləyir. Artıq təcrid olunmuş şəkildə yaşamağa ehtiyacımız yoxdur və özümüzdən daha böyük bir məfhumun hissəsi olduğumuzu hiss etməyə başlayırıq. Sponsorluq bizə AN-ə gəlməklə nəhayət evimizə qayıtdığımızı görməyə kömək edir.

Sponsorluqla bağlı bu məlumat broşürü bəzi suallarını cavablandırmaya bilər. Suallarına "doğru" və ya "yanlış" cavablar olmaya bilər, təcrübələr icmadan icmaya, üzvdən üzvə dəyişir. Bizdə sponsorluqla bağlı çoxlu məsələləri daha dərindən işıqlandıran bir kitab* mövcuddur.

* Azərbaycan dilində hələ nəşr edilməmişdir.

**Əlaqələr:**


Copyright © 2025 by
Narcotics Anonymous World Services, Inc.
Bütün hüquqlar qorunur



World Service Office
PO Box 9999
Van Nuys, CA 91409 USA
Tel. +1/818 773-9999
www.na.org

World Service Office–CANADA
Mississauga, Ontario

World Service Office–EUROPE
Brussels, Belgium
Tel. +32/2/646-6012

World Service Office–IRAN
Tehran, Iran
www.wsoiran.org


Bu AN İcmasının təsdiq etdiyi ədəbiyyatın tərcüməsidir


Narcotics Anonymous, ®, ®, ®, və The NA Way Narcotics Anonymous World Services, Incorporated'in qeydiyyata alınmış əmtəə nişanlarıdır.



ISBN 9781633804937 Azerbaijani 10/25

WSO Catalog Item No. AZ3111


Narcotics Anonymous®
Anonim Narkomanlar

IP Nr. 11-AZ

# Sponsorluq